AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

30 İYUL 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI № 159 (7917) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

# Güclü dövlət, güclü ordu

## *Müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələr formalaşdırılır*



*"Bundan sonra da Ordumuzun daha da gücləndirilməsi üçün bütün lazımi tədbirlər görüləcək. Azərbaycanın düşmənləri bunu bilir, görür, bilməlidir və görməlidir". Bu fikirləri ötən il iyunun 23-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı bildirib. Məhz buna görə bizə qarşı istənilən təxribatın cavabsız qalmadığını, hər bir təxribata layiqli cavab verildiyini söyləyən dövlətimizin başçısı deyib: "Yəni, bizim ölkəmiz, sözün əsl mənasında, müstəqil ölkədir, çünki müstəqil siyasət aparmaq iqtidarındadır və bizə bu gücü verən, ilk növbədə, bizim hərbi potensialımızdır".*



Güclü ordu dövlətin təməl prinsiplərindən biri, təhlükəsizliyinin əsas təminatçısıdır. Dayanıqlı iqtisadi inkişaf Azərbaycanda bütün sahələrdə olduğu kimi, qüdrətli ordu quruculuğu istiqamətində də genişmiqyaslı tədbirlər həyata keçirməyə imkan vermiş, ölkəmizin müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələri formalaşdırılmışdır. Prezident, Ali Baş Komandan İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunan Silahlı Qüvvələrimizin şəxsi heyəti torpaqlarımızın müdafiəsində mətinliklə dayanaraq döyüş qabiliyyətini və mənəvi-psixoloji hazırlıq səviyyəsini daim artırır. Bu gün Ordumuzun maddi-texniki bazası möhkəmləndirilir, müasir hərbi texnika və silah-sursatla təminatı yaxşılaşdırılır, hərbi qulluqçuların sosial müdafiəsi daha da gücləndirilir.

Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla Ordumuzu əhəmiyyətli dərəcədə təchiz edir. Silah və hərbi texnikaların satın alınması və hərbi məhsulların istehsalına dair bir sıra ölkələrlə müqavilələr imzalanaraq hərbi əməkdaşlıq əlaqələri genişləndirilir. Silahlı qüvvələrin modernləşdirilməsi Prezident İlham Əliyevin dövlət siyasətinin strateji isiqamətlərindəndir. Azərbaycan Ordusunun dünyanın ən güclü 50 ordusu sırasında olması həm də vaxtında aparılan islahatlarla bağlıdır.

(davamı 3-cü səhifədə)

(əvvəli 1-ci səhifədə)

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Silahlı Qüvvələrimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha bir missiyanı uğurla yerinə yetirdi. Azərbaycan Ordusu Qarabağ iqtisadi rayonunda keçirdiyi antiterror tədbirlərini uğurla başa çatdıraraq separatçıları təslim olmağa məcbur etdi. Dövlətimizin başçısının ötən il sentyabrın 20-də növbəti tarixi qələbəmizlə bağlı xalqa müraciəti hər birimizi qürurlandırdı. Təqribən bir gün davam edən antiterror tədbirlərinin uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür. Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Sözügedən qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Ordunun silahlanmasında daha çox təmassız müharibə vasitələrinin və idarəolunan sursatların tətbiqi genişləndirilir.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına uyğun olaraq Silahlı Qüvvələrimiz Türkiyə modelinə keçir və ordu quruculuğu istiqamətində qardaş Türkiyənin modeli əsas götürülür. Bu istiqamətdə xeyli işlər görülüb. Xüsusi olaraq dağ komanda birlikləri, hərbi hissələr yaradılıb ki, müasir döyüşlərdə və yeni müharibələrdə onun çox böyük önəmi var. Eyni zamanda xüsusi təyinatlılarımızın sayının artırılması istiqamətində də xeyli addımlar atılıb. Prezidentin "Ordumuzu Türk ordusunun kiçik modelinə çevirəcəyik" fikri, məhz Qarabağ savaşında qazanılan uğurlara söykənərək dediyi qənaətindən irəli gəlir.

Hərbi ekspertlər vurğulayırlar ki, Türkiyə modelinə keçmək üçün qarşıda duran başlıca vəzifələrdən biri Azərbaycan Ordusunun maddi-texniki bazasının yenilənməsidir. Bu məsələdə də Türkiyə hərbi müdafiə sənayesinin məhsullarını əldə etməyimiz və birgə istehsal mühüm əhəmiyyət daşıyır. Türkiyə müdafiə sənayesinin aparıcı şirkətləri ilə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin əməkdaşlığı dərinləşir, birgə istehsal sahələrinin fəaliyyəti genişlənir. Son bir-iki ildə Türkiyə müdafiə sənayesinin istehsal etdiyi elə silahlar var ki, xüsusilə PUA-lar dünyada ən modern silahlar kateqoriyasına aid edilir. Bu yaxınlarda Türkiyənin ən böyük hərbi gəmisi və dünyanın ilk hərbi PUA gəmisi (gəmi bir sıra texnikalarla yanaşı, pilotsuz uçuş aparatlarını (PUA) da daşıya biləcək və PUA-lar gəmidən havaya qalxa biləcəklər) "TCG Anadolu" xidmətə başlayıb. Gəminin dünyada analoqu yoxdur. Bu faktın özü Türkiyə müdafiə sənayesinin inkişafının səviyyəsinin göstəricisidir. Azad edilmiş ərazilərdə dislokasiya olunmuş bölmələrin əməliyyat və döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, həmçinin xüsusi şəraitdə döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə əməliyyat (komando) hərbi hissələri yaradılır. Komandoların Türkiyədə müvafiq hazırlıq kurslarını keçməsi təmin edilir. Vətən müharibəsində əldə edilən təcrübələrin təhlili əsasında Türkiyə Silahlı Qüvvələrinin də modeli nəzərə alınaraq yeni döyüş təlimatları hazırlanır. Türkiyə Silahlı Qüvvələri zabitlərinin iştirakı ilə təşkil edilən bir çox kurslara xeyli sayda hərbi qulluqçunun cəlb edilməsi mütəxəssis hazırlığını da yeni səviyyəyə yüksəldir. Şuşa Bəyannaməsi bir çox istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığı dərinləşdirir. Ayrı-ayrı qoşun birliklərimiz Türkiyə ordusu ilə fəal əməkdaşlıq edir. Eləcə də antiterror əməliyyatlarının, o cümlədən dağlıq ərazilərdə və sair istiqamətlərdə birgə təlimlər keçirilir.

Hazırda dünyada və regionda gedən ziddiyyətli siyasi prosesləri, ölkələr arasında yaranan münaqişələri nəzərə alsaq, Azərbaycanın postsovet məkanında tutduğu mövqe, yürütdüyü uğurlu siyasət olduqca təqdirəlayiqdir.



# Müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələr formalaşdırılır

Hazırda yeni dünya düzənində Silahlı Qüvvələr dövlətin beynəlxalq aləmdə gücünü nümayiş etdirməklə yanaşı, həm də maraqlarının qorunmasının əsasını təşkil edir. Hər bir müstəqil dövlət mövcudluğunu, təhlükəsizliyini məhz Silahlı Qüvvələr vasitəsilə təmin edir. Azərbaycan mürəkkəb coğrafi regionda yerləşdiyindən, tarixən xarici hücumlara məruz qaldığından ölkəmizdə ordu quruculuğuna böyük əhəmiyyət verilir. Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu siyasət ölkəmizin təhlükəsizliyinə, suverenliyinə zəmanət verir. Bütün bunlar qətiyyətli mövqenin, güc və bacarığın, məharətli diplomatiyanın nəticəsi kimi qiymətləndirilir. Ermənistan rəhbərliyi anlamalıdır ki, rəsmi Bakının xoş niyyətli yanaşmasından sui-istifadə etməyə davam edərək revanşizmə meyillənərsə və yenidən Azərbaycan üçün real hərbi təhdid yaradarsa, Azərbaycan tərəfindən dərhal adekvat və sarsıdıcı cavab alacaq. Bu zaman heç kim, o cümlədən Qərbdəki himayədarları belə onu xilas edə bilməyəcəklər.








**Mustafa KAMAL,**
**"Respublika".**